**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Нигяр Руслан гызы Насирова**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ НАЦИОНАЛЬНОГО САМОПОЗНАНИЯ СОВРЕМЕННОЙ МОЛОДЕЖИ

**6114.01- Социалъная психология**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ – 2014**

**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNIVERSİTETİ**

*Əlyazması hüququnda*

**NIGAR RUSLAN QIZI NƏSIROVA**

# MÜASİR DÖVRDƏ GƏNCLƏRİN MİLLI ÖZÜNÜDƏRKİNİN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**6114.01 – Sosial psixologiya**

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A F T O R E F E R A T I**

**Bakı - 2014**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,
professor **Rəna Həmid qızı Qədirova**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru,
professor **Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Nurəngiz Tofiq qızı Rzayeva**

Aparıcı təşkilat: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrası**

Müdafiə "_26__" "_09__" 2014-cü ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2014 - cü ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi

psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 964; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Multikulturalizmin, qloballaşmanın, inteqrasiyanın gücləndiyi müasir dövrdə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliği ən aktual məsələlərdən biridir. Milli-mənəvi və mədəni dəyərlərin inkişaf etdirilməsində, yeni şəraitdə aşınmaya məruz qalmasının qarşısının alınmasında, milli identikliyin formalaşdırılmasında milli özünüdərkin rolu böyükdür.

Tədqiqatlar göstərir ki, məhz özünüdərk, özünütanıma sayəsində şəxsiyyətin milli mənlik şüuru inkişaf edir, milli özünütəyin formalaşır, xalqın mənəvi dəyərləri qorunub saxlanılır və gələcək nəsillərə ötürülür.

Azərbaycan xalqının təşəkkülü və formalaşması prosesində baş vermiş mürəkkəb hadisələr, iqtisadi, siyasi və sosial-mədəni dəyişilmələr, son yüzillikdə torpaqlarımızın hissə-hissə işğalı xalqın mənəvi düşüncəsidə, milli oyanışında və milli özünüdərkində ciddi izlər buraxmışdır. Təsadüfü deyil ki, bu proseslər gənclərin milli identikliyində, milli özünüdərkində pozitiv məqamlarla yanaşı, həm də neqativ çalarlar yaradır, özünü milli etnik qrupla eyniləşdirmədə problemlər ortaya çıxarır. Nəzərə almaq lazımdır ki, özünün müəyyən etnik qrupun üzvü kimi dərk edilməsi, yalnız konkret etnik ümumiliyin formalaşmasına gətirib çıxarmır, həm də fərdin özünü məxsusi dəyərlərə malik şəxsiyyət kimi dərk etməsinə, özünün etnik "Mən"ini başqalarından fərqləndirməsinə zəmin yaradır.

Məhz fərdin özünü başqa etnosla müqayisəsi, öz etnosuna uyğun əlamətləri tapması və s. kimi sadə idraki təhlil konteksində dəyərləndirmə şəxsiyyətlərarası münasibətlər fonunda milli özünüdərki möhkəmləndirir, şəxsiyyətin dəyərlərində milliliyin dominantlığına şərait yaradır.

Qeyd etmək lazımdır ki, ərazimizin bir hissəsinin hal-hazırda işğalda saxlanılması, xalqımızın başına gətirilən müsibətlər göstərir ki, bu gün gənclərimizin öz kimliyini, milli mənliyini, tarixi keçmişini dərk etməsi və ona dərindən bələd olması vacibdir. Bu baxımdan müasir dövrdə gənclərdə milli özünüdərkin, milli şüurun formalaşdırılması, milli-mənəvi dəyərlərin qorunub saxlanması və onun gələcək nəsillərə ötürülməsi hər bir etnosun və xalqın nümayəndəsi üçün ən ümdə vəzifələrdən biridir.

Faktlar göstərir ki, milli özünüdərkin formalaşması prosesi olduqca mürəkkəb sosial-psixoloji qanunauyğunluqlara malikdir. Bu qanunauyğunluğun tədqiqi, gənclərdə milli özünüdərkin inkişaf etdirilməsinin yol və vasitələrinin tapılması bir tərəfdən milli-mənəvi dəyərlərin dərindən dərk olunmasına, digər tərəfdən isə xalqın gələcək inkişaf perspektivlərinin istiqamətlərinin müəyyənləşdirilməsinə imkan yaradır. Bunula

yanaşı hər bir etnosun, xalqın vahid bir millət kimi təşəkkül etməsi və formalaşması uzun ictimai tarixi inkişafın nəticəsi olaraq bir sıra sosial və psixoloji amillər sisteminin təsiri ilə yanaşı, həmin təsirlərin xarakterindən və intensivlik səviyyəsindən asılıdır. Buna görə də hər bir xalqda milli özünüdərkin formalaşması özünəməxsus xüsusiyyətlərə malik olur və özünün spesifik cəhətləri ilə seçilir. Yəni hər bir xalq müxtəlif ictimai-tarixi şəraitdə, bir sıra fərqli iqtisadi və sosial amillərin təsiri ilə inkişaf edərək vahid millət kimi formalaşa bilir.

Milli özünüdərkin formalaşmasında intensiv təsir dərəcəsinə malik amillərin araşdırılması və müasir dövrün tələbləri baxımından onların sistemləşdirilməsi gələcəkdə qarşıya çıxan problemlərin vaxtında həllinə imkan yaradır və neqativ hadisələrin təkrar olunma ehtimalını azaldır.

Bütün bunları nəzərə alaraq "Müasir dövrdə gənclərin milli özünüdərkinin sosial-psixoloji xüsusiyyətləri" mövzusunu tədqiqat obyekti kimi seçməyi məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Mövzunun işlənmə səviyyəsinə nəzər saldıqda görürük ki, gənclərin milli özünüdərkinin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri müxtəlif aspektlərdən tədqiq edilmişdir. Burada üç cəhəti fərqləndirmək lazım gəlir: birincisi, özünüdərketmə probleminə həsr olunmuş tədqiqatlar, ikincisi gənclik yaş dövrü ilə bağlı tədqiqatlar, üçüncüsü milli-etnik özünüdərketməyə həsr olunmuş tədqiqatlar.

Özünüdərketmə problemi ilə bağlı istər respublikamızda (Əliyev B.H., Bayramov Ə.S., Əlizadə Ə. Ə., Baxşəliyev Ə.T., Həmzəyev M. Ə., Əliyev R.İ, Qədirova R.H., Veysova Z.A., Hüseynova G.Q., Cabbarova L.M., Məcidova S.M, Əzimli Q.E., Cabbarov R.V., Mustafayev M.H, Qaragözov R.R. və b.), istərsə də xarici ölkələrdə (A.Adler, K.Xorni, K.Qoldşteyn, A.Maslou, K.Rocers, K.Yunq, Z.Freyd, R.Vayt, R.Petrovski, F.Perlz, A.A.Bodalyev, B.S.Bratus, M.Z.Karpov, A.M.Lenotyev, K.A.Abulxanova-Slavskaya, Y.V.Nekrasova, V.A.Petrovskiy, V.E.Cudnovski, E.From, Ç.Mid, C.Kuli və b.) çoxsaylı tədqiqatlar aparılmışdır. Bu tədqiqatlarda özünüdərkin formalaşma mexanizmi, təzahür xüsusiyyətləri və genezisi məsələləri diqqət mərkəzinə gətirilmiş,müxtəlif yaş dövrlərində özünüdərkin formalaşdırılmasının yol və vasitələri göstərilmiş, birbaşa olmasa da vasitəli şəkildə milli özünüdərkin ayrı-ayrı aspektləri öyrənilmişdir.

Gənclik yaş dövrü ilə bağlı aparılmış tədqiqatlarda gənclik yaşı ilk növbədə şəxsiyyətin ontogenetik inkişafının mühüm bir mərhələsi kimi tədqiq edilmiş, bu fonda özünüdərketmənin təzahür xüsusiyyətləri tədqiq edilmişdir. Gənclərdə milli özünüdərkin formalaşması məsələləri Azərbay-

can psixoloqlarının (Əliyev B. H., İbrahimbəyov F. Ə., Bayramov Ə.S., Əlizadə Ə. Ə., Həmzəyev M.Ə, Seyidov S.İ., Qədirova R.H., Mustafayev M. H. və b.) tədqiqatlarında geniş yer verilmişdir. Bununla yanaşı bir cəhət də xüsusi olaraq qeyd edilməlidir ki, ümumən şəxsiyyətin təşəkkülündə mənəvi-psixoloji xüsusiyyətlərin, o cümlədən ayrı-ayrı psixi keyfiyyətlərin araşdırılmasına həsr olunmuş bir çox tədqiqat işlərində də gənclərin milli özünüdərk prosesinin öyrənilməsinə ciddi diqqət yetirilmişdir.

Etnik-psixoloji yönümdə aparılmış tədqiqatlarda milli mənlik şüuru, milli xarakter, etnik-psixoloji xüsusiyyətlər və onların sistemli tədqiqi aparılmış, etnik özünüdərkin parametrləri və tarixi şəraiti göstərilmişdir (Əliyev B.H., Bayramov Ə.S., Əlizadə Ə. Ə., Həmzəyev M. Ə., Qumilyov L., Andreyeva Q.M., Kaçoyeva Q. U., Mayers D., Naumenko L.İ., Reznikov E.N., Stefanenko T.Q. və b).

Bütün bunlarla yanaşı problemə həsr olunmuş tədqiqat işlərində gənclərin psixoloji xüsusiyyətlərinin inkişafı və təşəkkülü məsələlərinə toxunulsa da, onlarda müasir dövrümüz üçün xüsusi aktuallıq kəsb edən milli özünüdərkin sosial-psixoloji xüsusiyyətləri və formalaşma mexanizmi müstəqil bir problem kimi araşdırılmamışdır. Bu da problemin müasir dövr üçün aktual olduğundan xəbər verir.

**Tədqiqatın obyekti-** tələbə-gənclərdə milli özünüdərkin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmetini** müasir dövrdə gənclərdə milli özünüdərkin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsədi.** Tədqiqat işində əsas məqsəd sosial- psixoloji sorğuların, fərdi söhbət və müşahidələrin köməyi ilə gənclərin milli özünüdərkin inkişaf səviyyəsini milli-mənəvi dəyərlər haqqında təsəvvürlərini və milli özünüdərkin formalaşmasına təsir göstərən amillər sistemini müəyyənləşdirməkdir.

**Tədqiqatın əsas fərziyyəsi.** Müasir gənclərdə milli özünüdərkin təzahürü bir sıra amillərlə yanaşı, öz milli kimliyi haqqında mövcud təsəvvürlərinin inkişaf səviyyəsindən, milli-mənəvi dəyərlərin və milli identikliyin dərk olunması istiqamətlərindən, eləcə də onlarla aparılmış maarifləndirici işin xüsusiyyətlərindən asılıdır.

Əsas fərziyyəyə uyğun olaraq bir köməkçi fərziyyə də götürülmüşdür:

-Gənclərdə milli özünüdərkin pozitiv yönümdə formalaşması onlarda vətənpərvərlik hisslərinin tərbiyəsindən, milli kimliyin təbliği istiqamətlərindən və öz tarixi keçmişinin dərk olunma səviyyəsindən asılıdır.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələrin gerçəkləşdirilməsi vacib hesab edilmişdir:

1. Problemlə bağlı müvafiq tarixi, psixoloji və pedoqoji ədəbiyyatın təhlili əsasında problemə yanaşmanın elmi-nəzəri aspektlərinin müəyyən edilməsi, onları müəyyən prinsiplər əsasında sistemləşdirilməsi;

2.Gənclərin milli özünüdərkinin formalaşması və mənəvi-əxlaqi təkmilləşmənin oxşar və fərqli cəhətlərini müəyyən edilməsi;

3. Gənclərdə milli özünüdərkin inkişafının təşəkkül xüsusiyyətlərinin araşdırılması, gənclərdə mənəvi keyfiyyətlər haqqında təsəvvürlərin formalaşması xüsusiyyətlərinin aydınlaşdırılması;

4. Gənclərdə milli özünüdərkin formalaşmasının, eləcə də onun ayrı-ayrı elementlərinin dəyişməsinin psixoloji mexanizminin müəyyən edilməsi, onu şərtləndirən sosial-psixoloji amillərin təsnifatının verilməsi;

5. Gənclərin milli özünüdərkində ortaya çıxan çətinliklərin korreksiya edilməsi üçün lazım olan maarifləndirici işin aparılmasının yol və vasitələrinin işlənib hazırlanması.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın metodoloji əsasını psixologiya və sosial psixologiyada özünüdərkin təşəkkülünün mexanizmi, strukturu və təzahürləri ilə bağlı ümumelmi müddəa və prinsiplər təşkil edir.Tədqiqatda aşağıdakı metodikalardan istifadə olunmuşdur:

1. Etnik identikliyin qiymətləndirilməsi metodikası.
2. Etnik identikliyin ifadəliliyinin ölçülməsi.
3. "Mən kiməm?" metodikası.

Bununla yanaşı, əldə olunmuş materialların kəmiyyət və keyfiyyət təhlilindən də istifadə olunmuşdur.Tədqiqatda istifadə edilmiş metodikaların modifikasiyasına geniş yer verilmiş, onların müxtəlif variantlarından, pilotojdan istifadə olunmuşdur. Tədqiqat 18-22 yaşlı gəncləri əhatə etmiş, müxtəlif təhsil müəssisələrində (BDU, ADPU, BSU) həyata keçirilmişdir. Tədqiqat 200 nəfəri əhatə etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müasir dövrdə gənclərdə milli özünüdərkin təşəkkül prosesinin dinamikası, təzahür xüsusiyyətləri, onun formalaşmasına təsir göstərən amillər sistemləşdirilmiş, gənclərdə milli identikliyin təzahür xüsusiyyətləri, milli özünüdərkin formalaşma istiqamətləri və onun adekvatlıq dərəcəsi müəyyən edilmişdir.

İlk dəfə olaraq bu tədqiqat işində:

- Gənclərdə milli özünüdərkin təşəkkül prosesinin psixoloji xüsusiyyətləri, onun genezisi və inteqrativ sistemlərlə əlaqəsi müəyyənləşdirilmiş, milli özünüdərkin formalaşmasına təsir göstərən amillər ayrı-ayrılıqda təhlil edilmiş, milli identikliklə milli özünüdərk arasındakı sosial-psixoloji asılılıqlar öyrənilmişdir;
- Gənclərin özünüdərkinin sosial-psixoloji xüsusiyyətləri araşdırılmış, bu

prosesin təşəkkülünə mane olan amillər ayırd edilmiş, onların aradan qaldırılması üçün adekvat üsullardan istifadə olunmasının zəruriliyi qeyd edilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

- Tələbələrdə milli identikliyin koqnitiv komponenti, yəni öz etnosu haqqında təsəvvürlərin səviyyəsi yüksək olsa da, emosional və davranış komponentində bu göstərici orta səviyyədən yüksək deyildir.

- Gənclərdə milli özünüdərkin inkişaf dinamikası yaşauyğun dəyişikliklərə malik olsa da, özünüdərketmənin və milli identikliyin adekvatlıq səviyyəsi bu prosesə ciddi təsir göstərir.

- Gənclərdə öz etnosuna məxsus milli-etnik keyfiyyətlərə münasibətdə müsbət emosiyalarla yanaşı, mənfi emosiyalar da təzahür edir ki, bu da öz növbəsində gənclərdə milli birlik hissini və milli özünüdərki zəiflədir, assimliyasiya prosesini gücləndirir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Gənclərdə milli özünüdərkin formalaşması mürəkkəb və çoxcəhətli proses olduğundan, onun inkişaf dinamikasının və psixoloji təzahürlərinin tədqiqinin nəticələri sosial psixologiyanı yeni biliklərlə zənginləşdirir. Bununla yanaşı, gənclərdə bu prosesin ümumi qanunauyğunluqlarının müəyyənləşdirilməsi və sistemləşdirilməsi sosial psixologiyanın və seçmə fənlərin tədrisində yeni elmi istiqamətlərin yaranmasına imkan vermiş olur. Çünki gənclərin milli özünüdərkinin onların inkişafının vacib prosesi kimi nəzərdən keçirilməsi, onun ayrı-ayrı aspektlərinin ön plana çəkilməsi, gənclərin mənəvi-psixoloji təkmilləşməsində yaranmış neqativ halların aradan qaldırılmasına yönəlmiş yeni metodların yaradılmasına imkan vermiş olar.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatda əldə olunan nəticələrdən ali məktəb tələbələrində milli özünüdərkin, milli vətənpərvərlik hissinin inkişaf və tərbiyə edilməsi işində geniş şəkildə istifadə oluna bilər. Gənclərdə milli özünüdərkin inkişafında və təkmilləşməsində yeni optimal variantların ortaya qoyulması, onlarda mənəvi keyfiyyətlərin, yüksək əxlaqi hisslərin inkişaf etdirilməsinə zəmin yaratmış olar. Tədqiqat işinin nəticələrindən müəllimlər üçün elmi-metodiki tövsiyələrin hazırlanmasında, milli-etnik problemlərin müxtəlif aspektlərini araşdırmaqla məşğul olan elmi-tədqiqat müəssisələrinin mütəxəssislərinin tədqiqat işlərində və seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında keçirilən elmi seminarlarda, müxtəlif elmi konfranslardakı məruzə və çıxışlarda müzakirə edilmişdir. Bununla yanaşı, dissertasiyanın əsas məzmunu, başlıca müddəaları, nəticə və tövsiyələri bir neçə elmi məqalə və məruzə tezisləri şəklində çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilir, fərziyyəsi formulə edilir, tədqiqatın metodoloji əsasları müəyyənləşdirilir. Həmçinin tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın **«Milli özünüdərketmənin sosial-psixoloji mahiyyəti və əsas təzahürləri»** adlanan 1 fəsli üç yarımfəsildən ibarətdir. Burada milli özünüdərketmənin sosial-psixoloji mahiyyəti və əsas təzahür xüsusiyyətləri diqqət mərkəzinə gətirilir. I fəslin **" Milli özünüdərkin formalaşmasını şərtləndirən əsas sosial-psixoloji amillər və onun tədqiqi istiqamətləri"** adlanan birinci yarımfəslində qeyd olunur ki, hər bir etnosun və ya hər bir xalqın millət kimi formalaşması, yəni onda milli özünüdərkin təşəkkülü və formalaşması özünəməxsus cəhətlərə malik olmaqla yanaşı müxtəlif sosial, iqtisadi, sosial-psixoloji, eləcə də etnik psixolji amillərin təsiri ilə baş verir və hər bir xalqda bu cəhətlər məxsusi şəkildə özünü göstərir. Burada milli özünüdərkin formalaşmasına təsir edən amillər sistemi müxtəlif səviyyələrdə və bəzən başqa-başqa istiqamətlərdə təsir göstərir və bu da fərqli nəticələrə gətirib çıxarır. Qeyd olunur ki, milli özünüdərkin formalaşmasını şərtləndirən əsas sosial-psixoloji amillərə etnosun formalaşdığı tarixi şərait, dil və din birliyi, landşaft, elcə də etnosun mövcud olduğu mədəni-coğrafi şəraiti aid etmək olar. Göstərilir ki, problemin öyrənilməsinə birmənalı yanaşma tərzləri yoxdur. Bu onunla bağlıdır ki, etnosların formalaşması haqqında irəli sürülən elmi mübahisələrdə müxtəlif faktlar əsas götürülür və bu da nəticədə vahid konsepsiyanın formalaşmasına imkan vermir. Milli özünüdərkin formalaşması milli şüurun və milli mənsubiyyət hissinin təşəkkülü əsasında baş verir. Bu yarımfəsildə belə qənaətə gəlinir ki, milli özünüdərketmə mürəkkəb proses olub, etnosun və ya millətin formalaşması prosesi ilə yekunlaşa bilməz. Ona görə ki, milli özünüdərk yalnız “Milli mən”in formalaşması ilə başa çatmır. Obyektiv tarixi situasiya etnosun özünüdərketməsində müxtəlif deformasiyalar yarada bilər. Bu baxımdan milli özünüdərk prosesi dinamik prosesdir. Bütün bunlar göstərir ki, xalqın özünüdərki bir sıra amillərlə yanaşı onun yaradıcılığı, bədii ədəbiyyatın zənginliyi, milli-mənəvi dəyərlərinin əhatəliliyi, adət-ənənələri, milli xarakterin və milli özünüqiymətləndirmənin səviyyələri ilə ölçülə bilər.

I fəslin « **Milli özünüdərketmə prosesində identikləşdirmənin yeri və əsas təzahürləri»** adlanan ikinci yarımfəslində milli özünüdərketməni araşdırmaq üçün zəruri olan identikləşmə, refleksiya və adaptasiya anlayışlarının psixoloji mahiyyətinə aydınlıq gətirilir. Burada qeyd olunur ki, gənclərdə milli identikliyin formalaşması ümummilli şüurun, milli birliyin, milli özünüdərkin formalaşmasını şərtləndirən çox mühüm sosial-psixoloji amildir. Eyni zamanda göstərilir ki, identifikasiya prosesinə nəinki hər hansı şəxsin, o cümlədən hər hansı bir gəncin idrak səviyyəsi, özünüdərk və özünüqiymətləndirmə dərəcəsi, eləcə də onun etnik-milli xüsusiyyətləri də ciddi təsir edir.

I fəslin **"Gənclərdə milli özünüdərketmənin tədqiqinin əsas yol və vasitələri"** adlanan üçüncü yarımfəslində qeyd olunur ki, gənclərdə milli özünüdərketmə problemi çox mürəkkəb və çoxcəhətli proses olduğundan onun araşdırılması üçün zəruri olan adevkat üsullar, başqa sözlə psixoloji tədqiqat metodları da çox mürəkkəb və çoxcəhətli olur. Elə buna görə də problemin tədqiqi üçün seçilən metodlar da özünəməxsus cəhətləri ilə fərqlənir. Müasir gənclərdə milli özünüdərkin təşəkkülü və formalaşması səviyyəsini müəyyənləşdirmək üçün onların Azərbaycan xalqının ədəbi-bədii irsinə nə dərəcədə bələd olmalarını müəyyən etmək, bunun üçün adekvat üsul və vasitələrdən istifadə etmək xüsusi əhəmiyyət kəsb edir. Buna görə də müasir gənclərimizdə milli özünüdərkin təzahür xüsusiyyətlərini və inkişaf səviyyəsini müəyyənləşdirmək üçün tədqiqatın metodikasında qeyd edilən cəhətlərlə bağlı həm şifahi sorğular, həm də anket suallarından istifadə edilmişdir.

Dissertasiyanın "**Gənclərdə milli özünüdərkin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri** » adlanan II fəsli iki yarımfəsildən ibarətdir. II fəslin **"Gənclik yaşının psixoloji xüsusiyyətləri və onlarda milli özünüdərkin təşəkkülü istiqamətləri"** adlanan birinci yarımfəslində qeyd olunur ki, insan ömrü müxtəlif yaş mərhələlərindən keçir və hər yaş dövrünün özünəməxsus xüsusiyyətləri vardır. Həmin amillər içərisində fizioloji və psixoloji xüsusiyyətlər önəmli yer tutur. Lakin nəzərdən qaçırmaq olmaz ki, həmin xüsusiyyətlərin özləri də müxtəlif amillərin təsiri ilə hər yaş mərhələsində özünəməxsus tərzdə formalaşır.

Bu yarımfəsildə eyni zamanda qeyd olunur ki, müəyyən yaş həddinə çatmış fərdin və ya ümumən insanların öz əhatəsində olan şəxslərlə ünsiyyət saxlaması üçün onlarla dil birliyi, yəni öz xalqının dilində, başqa sözlə ana dilində danışması, fikir və hisslərini bölüşməsi çox ciddi əhəmiyyət kəsb edir. Təsadüfən deyilmir ki, bu və ya digər bir xalqın ana dilinin ölməsi, sıradan çıxması, yəni milli dilin aşınmaya məruz qalması həmin xalqın, millətin asi-

miliyasiyası, bir xalq və millət olaraq aradan çıxması kimi qiymətləndirilir.

Dissertasiyanın II fəslinin "**Gənclərdə milli özünüdərkin təzahür xüsusiyyətləri**" adlanan ikinci yarımfəslində qeyd edilir ki, milli özünüdərk mexanizm etibarilə şəxsiyyətin ontogenetik inkişafında fərdin özünün milli mənsubiyyətini dərk etməsi və bu fonda özü haqqında, xalqı haqqında təsəvvürləri qiymətləndirməsi prosesini xatırladır. Lakin özünün həcminə və diapazonuna, xüsusən də ona təsir edən amillərin çoxluğuna və mürəkkəbliyinə görə gənclərdə milli özünüdərk fərdin özünü dərk etməsi və qiymətləndirməsindən ciddi surətdə fərqlənir və bu, ilk növbədə şəxsiyyətdən müəyyən inkişaf səviyyəsinə, başqa sözlə yetkinlik həddinə çatmasını tələb edir. Bu yarımfəsildə eyni zamanda qeyd olunur ki, xalqın milli özünüdərkinin formalaşmasını şərtləndirən bir sıra mürəkkəb amillər sisteminin mövcudluğu zəruridir. Burada ilk növbədə xalqın yaşadığı torpaq, ərazi, yəni Vətən torpağının mövcudluğu da zəruridir. Yəni hər bir xalq özünü dərk etmək üçün özünün torpağının, ocağının, yurdunun olmasını dərk etməli, onun ərazisini, tarixi keçmişini yaxşı bilməlidir.

Müasir gənclərimizdə milli özünüdərkin formalaşması və inkişafı üçün onlarda istər ailə tərbiyəsində, istərsə də təlim-tərbiyə prosesində milli şüurun, milli vətənpərvərlik hisslərinin aşılanmasına xüsusi diqqət yetirilməlidir. Bununla bərabər, millətin mühüm atributları olan ana dilinin, xalqın adət-ənənəsinin, stereotip və yönümlərinin, sərvət meyllərinin, ədəbi-bədii irsinin, musiqi və incəsənətinin fəal surətdə öyrənilməsinə və mənimsənilməsinə xüsusi fikir verilməlidir. Əlbəttə, burada gənclərin özlərinin fəallığı, yəni milli özünü dərk etməyə can atmaları, milli özünüdərkin əsas atributlarını şüurlu surətdə mənimsəmələri də mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın "**Gənclərdə milli özünüdərketmənin eksperimental-psixoloji tədqiqi**" adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Üçüncü fəslin "**Tədqiqatın təşkili və metodikanın təsviri**" adlanan birinci yarımfəslində qeyd olunur ki, özünüdərketmə prosesinin adekvatlığı özünüqiymətləndirmə, milli özünüdərketmə, milli identifikasiya prosesinin pozitivliyindən çox asılıdır. Bu baxımdan tədqiqatda etnik identikliyin pozitivliyi və qeyri-müəyyənliyinin qiymətləndirilməsi, etnik identikliyin ifadəliliyinin ölçülməsi, etnik mənsubiyyətlə bağlı olan hisslərin ekspressiv qiymətləndirilməsi və "Mən kiməm" metodikası vasitəsilə milli özünüdərketmənin öyrənilməsinə çalışmışdır.

Dissertasiyanın üçüncü fəslinin **"Nəticələrin işlənməsi"** adlanan ikinci yarımfəslində hər bir metodikanın nəticələrinin ayrı-ayrılıqda şərhi məqsədəmüvafiq hesab edilmiş, ümumi nəticələr isə müqayisə edilmişdir. Nə-

ticələrin işlənməsində kəmiyyət və keyfiyyət təhlilindən istifadə edilmişdir.

Təbii ki, etnik identikliyin pozitiv istiqamətdə formalaşması üçün etnik identikliyin üç komponenti- koqnitiv, affektiv və davranış komponenti vəhdətdə inkişaf etməlidir. Rəyi soruşulan tələbələrin demək olar ki, 71%-i özünü azərbaycanlı anlamı ilə eyniləşdirir. Rəyi soruşulan tələbələrin 22%-i digər etnoslarla özünü eyniləşdirmiş, 7%-i isə etnik identikliyin müəyyən edilməsində çətinlik çəkmişlər. Sorğu ilə bağlı nəticələr cədvəl 3.1-də öz əksini tapmışdır.

Özünüzü hansı etnosla və ya milli-etnik qrupla eyniləşdirirsiniz?

Cədvəl 3.1.

| Tələbələrin milli-etnik qruplarla özünüeyni-ləşdirməsi | Tələbələrin cavabları (%-lə ifadə) |
|---|---|
| Azəri türkü | 71 |
| Digər etnoslar | 22 |
| Cavab verməkdə çətinlik çəkirəm | 7 |

Tələbə auditoriyalarının öyrənilməsi göstərdi ki, tələbələrin əksəriyyəti azərbaycanlı olmaqla azəri türkü olmağı eyniləşdirirlər. Bu da onu göstərir ki, tələbələrdə, etnik mənşə haqqında təsəvvürlər adekvat olsa da, etnik identikliyin koqnitiv komponenti tam şəkildə formalaşmamışdır. Bu məqsədlə tələbələrdə etnik identikliyin pozitivliyini və qeyri-müəyyənliyini ayırd etmək üçün xüsusi metodikadan istifadə etdik. Nəticələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Milli-etnik qrupların etnik identikliyin- pozitivliyinin və qeyri-müəyyənliyinin göstəriciləri

Cədvəl 3.2.

| Etnik identikliyin qiymətləndirilməsi səviyyələri | Tələbələrin cavabları (%-lə ifadəsi) |
|---|---|
| Etnik identikliyin pozitivliyi | 75 |
| Etnik identikliyin qeyri-müəyyənliyi | 25 |

Cədvəl 3.2-dən göründüyü kimi tələbələrin 75 %-i etnik identikliyi pozitiv səviyyədə qiymətləndirmişlər. Bu öz xalqına mənsubluğun tələbələr üçün yüksək mənəvi hisslər yaratdığını göstərir və özünü öz etnosu ilə qiymətləndirmə adekvat səviyyədə özünü təzahür etdirir. Tələbələrin 25%-i öz etnik identikliyini qeyri-müəyyən qiymətləndirmişlər. Onların

anket məlumatlarının təhlili göstərdi ki, onların etnik mənşəyi eyni tərkibə malik deyildir. Məsələn, ata azəri türkü, ana ləzgi və ya digər belə etnik qruplara məxsusluq zamanı bu hallar müşahidə olunmuşdur. Bu amil gənclərin özlərini etnik identikliyini pozitiv səviyyədə qiymətləndirməyə imkan vermir.

Əldə olunmuş məlumatların mötəbərliyini müəyyən etmək üçün digər metodikalarla tələbələrlə sorğu keçirməyi məqsədəmüvafiq hesab etdik. Bunun üçün etnik identikliyin ifadəliliyinin ölçülməsi metodikasından istifadə olundu. Burada gənclərdən milli mənsubiyyətinə, etnik qrupuna və ona münasibətə aid suallara cavab verməh tələb olunur.

" Sizdə öz xalqınıza (millətinizə) mənsubluq hansı hissləri oyadır?"

Cədvəl 3.3.

| Hisslərin ifadəsi | Bal göstəriciləri | Cavabların göstəriciləri (%-lə ifadəsi) |
|---|---|---|
| Qürur | 5 | 13 |
| Sakit inam (əminlik) | 4 | 65 |
| Heç bir hiss yoxdur | 3 | 12 |
| İnciklik | 2 | 6 |
| Təhqir, alçalma | 1 | 4 |

Cədvəl 3.3-dən göründüyü kimi tələbələrin cavablarında neqativ hisslərdən (alçalma, təhqir) hiperpozitiv hisslərə (qürur) doğru yüksəlmə müşahidə olunur ki, bu da normada milli özünüdərkin göstəricilərinin adekvatlığından xəbər verir. Nəzər almaq lazımdır ki, göstərilən şkalada norma "sakit əminlik (inam)" cavab variantı hesab olunur ki, bu da rəyi soruşulan tələbələrin 65% özünü göstərir. Tələbələrin 13% qürur hissi, 4% təhqir, alçalma, 6 % inciklik, 12% isə heç bir hiss doğurmaması müşahidə olunmuşdur. Təbii ki, neqativ hisslərin mənbəyinin haradan gəlməsi barədə tələbələrlə aparılmış sorğu lazım olan nəticənin əldə olunmasına imkan vermədiyindən və yalnız əksəriyyətin verdiyi cavabları, yəni öz xalqına mənsubluğun inam və əminlik doğurması şkalasını əsas götürdük və bununla da müəyyən etmək olar ki, tələbələrdə öz xalqına qarşı inamın olması onlarda pozitiv özünüdərkin olmasına dəlalət edir.

Bütün bunlarla yanaşı gənclərdə milli özünüdərkin təzahür xüsusiyyətlərini öyrənmək üçün etnik identikliyin ifadəliliyinin ekspress-qiymətləndirilməsi şkalasından istifadə etdik. Şkala tədqiq olunanlarda etnik identikliyin ifadə olunmasının sürətli qiymətləndirilməsi zamanı istifadə

edilir. Cavab verən zaman tədqiq olunan özünü hansı dərəcədə öz xalqının nümayəndəsi olaraq hiss etdiyini qiymətləndirməlidir. Qeyd etmək vacibdir ki, verilmiş şkalanın istifadəsi zamanı tədqiq olunan mütləq anketdə öz milliyyətini göstərməlidir. Sual belə qoyulur:

Siz özünüzü hansı dərəcədə öz xalqınızın nümayəndəsi kimi hiss edirsiniz?

Cədvəl 3.4.

| Sıra № | Cavab variantları | Tələbələrin mili-etnik qrupu | | | |
|---|---|---|---|---|---|
| | | Azəri türkü | Talış | Ləzgi | Türkiyə türkü |
| 1. | Ümumiyyətlə hiss etmirəm | 4 % | 7% | 5% | 1% |
| 2. | Hiss edirəm, ancaq zəif | 3,5% | 5% | 8% | 3% |
| 3. | Bəzən hiss edirəm, bəzən yox | 2,5% | 3% | 4% | 2% |
| 4. | Demək olar ki həmişə hiss edirəm | 12% | 21% | 25% | 11% |
| 5. | Bütövlüklə (tam şəkildə) hiss edirəm | 78% | 64% | 58% | 83% |

Cədvəl 3.4-dən göründüyü kimi tələblərin içərisində azəri türkləri , talış, ləzgi, türkiyə türklərinin «Siz özünüzü hansı dərəcədə öz xalqınızın nümayəndəsi kimi hiss edirsiniz?» sualına cavabında bütövlüklə hiss edirəm şkalası üzrə uyğun olaraq tələbələrin 78%, 64%,58%, 83% özünü bütövlükdə öz xalqının nümayəndəsi hesab etmişlər. Burda birinci yeri Türkiyə tələbələri tutmuşdur. Onların 83% özünü bütünlüklə öz xalqının nümayəndəsi hesab etdiklərini bildirmişlər. Doğurdan da özünün mənsub olduğu xalqın nümayəndəsi hesab etmək və buna bütövlükdə əmin olmaq, onun müsbət və mənfi cəhətlərini nəzərə almamaq milli özünüdərkin göstəricilərindən biridir. Əlavə sorğular göstərdi ki, öz xalqının nümayəndəsi kimi özünü təqdim etmək onun hər hansı mənfi etnik xüsusiyyətinin müsbət cəhəti kimi təqdim etmək milli vətənpərvərlik hissinin, o cümlədən özünüdərkin inkişaf istiqamətlərindən xəbər verir. Bunu əsas götürərək digər şkalaların təhlilinə ehtiyac duymamışıq.

Milli özünüdərketmə ilə tələbələrin öz haqqında təsəvvürlərinin əlaqəsini öyrənmək üçün tədqiqat zamanı "Mən kiməm?" metodikasından istifadə etmişik. Bir məqamı da qeyd etmək lazımdır ki, həmin metodika etnik identikliyin öyrənilməsinə istiqamətlənmiş metodikaların tərkibində istifadə edilir. Cavabların keyfiyyətcə işlənməsində ayrı-ayrı dəyişənlərin içərisində tədqiq olunanın altı xarakteristikasının arasında milli mənsubiyyət (milliyyət) ranqının dəyişməsini nəzərdən keçirməyi məqsədəmüvafiq hesab etdik.

Seçilmiş altı xarakteristika içərisində tələbələrdə daha çox özünü göstərən keyfiyyətlər cədvəl 3.5-də öz əksini tapmışdır.

Tələbələrin altı xarakteristika üzrə cavablarının göstəriciləri

Cədvəl 3.5.

| Keyfiyyət göstəriciləri | Cavabların göstəriciləri (%-lə ifadəsi) |
|---|---|
| Şəxsiyyət keyfiyyətləri | 56 |
| Peşə göstəriciləri | 25 |
| Etnik xüsusiyyətlər | 17 |
| Digər keyfiyyətlər | 2 |

Cədvəl 3.5-dən göründüyü kimi tələbələrin digər sorğularda etnik identikliyi birinci yerdə gördüyü halda özü haqqında təsəvvürlərdə etnik xüsusiyyətlər axırıcı yerlərdən birini (17%) tutur. İstisna hallarda tələbələrdə dini mənsubiyyət də özünü göstərir (məsələn, mən müsəlmanam). Apardığımız tədqiqat göstərdi ki, tələbələrdə şəxsiyyət keyfiyyətləri (56%) haqqında təsəvvürlərin üstünlük təşkil etməsi onların özünügerçəkləşdirmə səviyyəsinin aşağı olması ilə əlaqədardır. Bundan başqa torpaqlarımızın hələ də erməni işğalında qalması tələbənin özü haqqında təsəvvürlərinin müsbət yönümdə formalaşmasına maneəçilik yaradır və bu amil onların milli xüsusiyyətlərinin keyfiyyətlər sistemində birinci yeri tutmasına mane olur.

Айдын олдu ки, «Мян кимям» методикасы васитясиля ялдя олунмуш нятиъяляр 18 йашдаn сонракы йаш дюврляриндян кямиййят вя кейфиййят бахымындан фярглянир. Нятиъялярин илкин тящлили эюстярди ки, 20 йашда олан эянълярин юзлярини бир нечя кейфиййят васiтясиля тясвири яввялки дюврляря нисбятян дяйишир. 18 йашлылар юзляриндя даща чох шяхсиййят кейфиййятləri тяsвир етдикляри щалда, 20-23 йашлы тялябялярдя етник хцсусиййятлярин тясвири юн плана кечмишдир.

Sizin fikrinizcə əsl azərbaycanlı olmaq nə deməkdir?

Cədvəl 3.6.

| Zəruri keyfiyyətlər | Tələbələrin cavabları (%-lə) |
|---|---|
| Adət-ənənələrə hörmət etmək və uşaqları bu ruhda böyütmək | 31,7 |
| Azərbaycanın tarixini, keçmişini və dilini | 30,4 |

| | |
|---|---|
| yaxşı bilmək | |
| Öz vətəninin sevmək və ona bağlı olmaq | 21,5 |
| Öz vətəninə xeyir vermək, onun gələcəyi uğrunda çalışmaq | 16,4 |

Bu suala tələbələr cavab verərkən ölkəmizin tanınmış xadimlərinin mövqeyindən çıxış etmişlər. Tələbələrin fikrincə, azərbaycanlı olmaq onunla fəxr etmək deməkdir. Özlərinin şərhlərində onlar Ümummilli liderimiz H.Əliyevin «Mən fəxr edirəm ki, azərbaycanlıyam» tarixi fikrindən çıxış etmişlər. Baxmayaraq ki, hər etnosda olduğu kimi azərbaycanlılarda da çatışmayan cəhətlər vardır. Lakin tələbələr rəy sorğularında yalnız müsbət keyfiyyətlərin məcmusunu vermiş və azərbaycanlı olmaq müsbət keyfiyyətlərə malik olmaq kimi təqdim edilmişdir. Sorğular göstərdi ki, tələbələr adət-ənənələrə hörmət etmək və uşaqları bu ruhda böyütmək, azərbaycanın tarixini, keçmişini və dilini yaxşı bilmək şkalalarını az faiz fərqi ilə başqalarından yüksək qiymətləndirmişlər. Tələbələrin əksəriyyəti qeyd etmişdir ki, azərbaycanlılar öz adət-ənənələrinə riayət etməli, uşaqlarını bu ruhda böyütməli, öz milli keçmişini və dilini dərindən bilməlidirlər.

Dissertasiyanın üçüncü fəslinin "**Gənclərin milli özünüdərk və vətənpərvərlik ruhunda tərbiyəsi üçün ailədə valideyn-övlad münasibətlərində müsbət psixoloji iqlimin yaradılması**" adlanan üçüncü yarımfəslində qeyd olunur ki, böyüməkdə olan gənc nəsildə, xüsusən də gənclərdə vətənpərvərlik hissinin, milli özünüdərkin əsası, bünövrəsi ailə tərbiyəsindən qoyulur. Ailədə valideyn-övlad münasibətlərindəki psixoloji iqlim ailənin strukturundan ailədə nəsillər arasında münasibətlərin xarakterindən, övladların cinsi və yaş xüsusiyyətlərindən, qohumlara münasibətin xarakterindən və s. asılıdır. Hər bir xalqda tarixi planda ailə inkişaf etdikcə orada valideyn-övlad münasibətləri də mürəkkəbləşir, çoxsahəli, çoxplanlı olur. Həmin münasibətlər sisteminin müxtəlif təzahürləri meydana çıxır. Buna görə də ailə üzvləri üçün müsbət psixoloji iqlimin yaradılması çox əhəmiyyətli və vacib məsələdir.

Apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- Tədqiqat göstərdi ki, gənclik yaş dövrü mili özünüdərkin təşəkkül və inkişafı üçün həlledici yaş dövrüdür və bu yaş dövründə etnik şüurun inkişaf etdirilməsi gənclərdə milli-mənəvi dəyərlərin formalaşması üçün zəruri şərtlərdən biridir;

-Apardığımız tədqiqat göstərdi ki, milli–etnik özünüdərkin formalaşması və onun pozitiv istiqamətdə gerçəkləşməsi üçün fərdin özü haqqında, öz etnosu haqqında təsəvvürlərinin pozitivliyi zəruridir. Müsbət təsəvvür optimizm yaradır və gənclərdə mili şüurun formalaşması üçün kompleks dəyərlər sistemi formalaşdırır;

-Eksperimentin təhlilindən belə qənaətə gəlmək olar ki, milli özünüdərketmənin inkişaf dinamikası tələbələrin yaş xüsusiyyətləri ilə yanaşı özünü xalqın nümayəndəsi kimi dərki, milli identiklik haqqında keçmiş təcrübədə əldə olunmuş biliklərin pozitiv və ya neqativ olunması ilə səciyyəvidir.

-Gənclərin təhsil aldığı dil, valideynlərinin təhsil səviyyəsi və onların mövqeyi, məktəbdə təlim və tərbiyəçinin təşkili xüsusiyyətləri, tarix dərsliklərinin səviyyəsi, eləcə də kütləvi informasiya vasitələri tərəfindən təbliğ edilən, aşılanan vətənpərvərliklə bağlı biliklər və mənəviyyat normaları, onların mənəvi biliklərin baza komponentlərinin, yəni milli özünüdərkin təşəkkülündə mühüm rol oynayır.

-Tədqiqatın nəticələrindən aydın olur ki, gənclərdə yaş artdıqca milli özünüdərkin subyektiv ifadəsi güclənir, yəni onlarda öz milli qruplarına üstünlük vermək meyli artır. Milli mənlik şüuru daha intensiv formada təşəkkül edir. Elə buna görə də gənclik yaşı dövrünün bir sıra problemləri içərisində onların mənəvi inkişafı, mənəvi təşəkkülü, mənəvi tərbiyəsi problemləri vacib məsələ kimi ön plana çəkilir.

- Müəyyən edildi ki, Azərbaycan dilində, yəni öz ana dilində təhsil alan məktəbli gənclər üçün milli-etnik özünüdərkin milli iftixar hissləri və onların mənbələrinin dərk edilməsi güclənir. Bu halda gənclər öz milli qruplarına üstünlük verməyə daha artıq meyilli olurlar.

Dissertasiyanın əsas müddəaları müəllifin çap edilmiş aşağıdakı **məqalə və tezislərində** öz əksini tapmışdır:

1. Milli özünüdərketmə prosesində identikləşdirmənin yeri və əsas təzahür xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2009, №2, s.45-55

2. Gənclik yaşının psixoloji xüsusiyyətləri və onlarda milli özünüdərkin təşəkkülü haqqında // Psixologiya jurnalı, Bakı, 2009, №4, s.25-38

3. Milli özünüdərkin sosial-psixoloji mahiyyəti və gənclərdə ümumi təzahür xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2010, №1, s.70-78

4. Milli özünüdərkin formalaşmasını şərtləndirən əsas sosial-psixoloji amillər haqqında // Psixologiya jurnalı, Bakı, 2010, №3, s.51-66

5. Xalqın milli identikliyinin formalaşmasına həmin xalqa məxsus etnik psixoloji xüsusiyyətlərin təsiri haqqında // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı, 2010, №5, s.279-289

6. Особенности формирования нравственного самосознания у студенческой молодежи // Вектор науки, Тольятти, 2012, №1 (8), с. 221-224.

7. Milli identikliyin formalaşmasına ictimai-tarixi şəraitin təsiri məsələsinə dair / Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. Bakı: 2011, s.368-370.

8. Психологические аспекты нравственного самосознания личности студента / Практика коммуникативного поведения в социально-гуманитарных исследованиях – материалы II международной научно-практической конференции. Пенза-Сургут-Витебск: 2011, с.12-15

**Нигяр Руслан гызы Насирова**

**Социально-психологические особенности национального самопознания современной молодежи**

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одной из актуальных проблем современности – изучению социальных и психологических особенностей национального самосознания современной молодежи. Формирование национального самосознания и национального сознания в целом, а также сохранение и передача будущим поколениям национально-духовных ценностей являются первоочередными задачами для представителей каждого этноса и народа. Как показывают события новой истории Азербайджана, часть наших оккупированных земель, изгнанные и ставшиеся без крова беженцы, морально-психологический и физический террор против нашего народа требуют от молодежи проявления национального «Я», более глубокого знания своей истории. Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

I глава диссертации под названием **«Социально-психологическое значение и основные проявления национального самопознания»** состоит из трех параграфов. Здесь главное внимание сосредоточено на социально-психологическом значении и особенностях проявления национального самосознания, систематизируются социально-психологические факторы, обуславливающие формирование этого феномена, на материале различных исследований рассматриваются историко-психологические вопросы формирования этноса как нации.

II глава диссертации **«Социально-психологические особенности формирования национального самопознания у молодежи»** состоит из двух параграфов. Здесь анализируются возрастные психологические особенности молодежи, направления появления у молодых людей национального самосознания. Отмечается, что это сложный и многогранный процесс, зависящий от многих факторов. Механизм этого процесса напоминает ситуацию с оценкой собственного и коллективного осознания индивида на фоне онтогенетического развития личности. Однако эти процессы коренным образом отличаются друг от друга как по своему объему, так и по диапазону.

III глава диссертации называется **«Экспериментально-психологическое исследование национального самопознания молодежи».** Здесь основное внимание акцентируется на таких факторах, влияющих на становление самопознании, как язык, воспитание, знание своей истории, привязанность к родной

земле. Было установлено, что развитие национального самосознания у молодежи, наряду с со сложной структурой, имеет собственные уровни и этапы онтогенетического развития, каждый из которых обладает своими особенностями.

В заключительной части диссертации общаются полученные результаты и выводы исследования, даются соответствующие рекомендации.

**Nigar Ruslan gyzy Nasirova**

## Social and psychological characteristics of national consciousness of modern young people

## SUMMARY

The thesis is devoted to one of the most pressing issues of our time – the study of social and psychological characteristics of national self-consciousness of today's youth. The formation of national identity and national consciousness as a whole, as well as the preservation and transmission to future generations of national and spiritual values are priorities for the representatives of each ethnic group and nation. As the events of modern history of Azerbaijan, part of our occupied land , persecuted and became homeless refugees, moral, psychological and physical terror against our people demand that the national youth manifestations "I", a deeper knowledge of their history. The thesis consists of an introduction, three chapters, conclusion and bibliography.

I chapter of the thesis entitled **"Social and psychological significance and the main manifestations of national identity"** consists of three sections. Here, the main focus is on the social and psychological significance and features displays of national identity, systematized social psychological factors that contribute to the formation of this phenomenon on the material of the various studies are considered historical and psychological issues of formation of the ethnic group as a nation.

II chapter of the thesis **"Social and psychological characteristics of the formation of national consciousness among the youth"** consists of two sections. It explores the psychological characteristics of young age, the direction of the appearance of the young people's national consciousness. It is noted that this is a complex and multifaceted process that depends on many factors. The mechanism of this process is similar to the situation with the assessment of their own individual and collective awareness on the background of the ontogenetic development of the individual. However, these processes are fundamentally different from each other as to their volume, and the band.

III chapter of the thesis **"Experimental psychological study of national self-consciousness of youth"** in terms of experimental psychological method analyzes the characteristics of manifestation of national consciousness among students. It was found that the development of national consciousness among

young people, along with a complex structure, with its own levels and stages of ontogenetic development, each of which has its own characteristics .

In the final part of the thesis has generalized the findings and conclusions of the study adn are given recommendations.